# Haqqın yaşayır general



**Sərkərdəlik istedadı hələ Sovet məkanında parlayan generallardan biri də Fikrət Seyfulla oğlu Məmmədov idi.**

Lənkəran şəhərində ziyalı ailəsində anadan olan Fikrət Məmmədov şəhər 4 nömrəli orta məktəbini bitirib. Hələ orta məktəbdə oxuyanda həmyerlisi iki dəfə Sovet İttifaqı Qəhrəman, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun həyat və döyüş yolu ilə maraqlanıb və onun kimi hərbçi olacağını qərara alıb. Elə bu məqsədlə orta məktəbi bitirəndən sonra sənədlərini Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə təqdim edib. Hərbi məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini Frunze adına Moskva Hərbi Akademiyasında davam etdirib. Ali hərbi təhsilini başa vuran Fikrət Məmmədov həmyerlisi, təcrübəli hərbçi general Zadir Rzayevlə birlikdə Zaqafqaziya Hərbi Dairəsində bir sıra məsul vəzifələrdə çalışıb. Azərbaycana erməni təcavüzü başlayanda doğma Respublikaya qayıdaraq təcili milli ordu quruculuğuna qatılıb. Lakin heç kim gözləmirdi ki, general-mayor Fikrət Məmmədov bu tezlikdə, cəmi 40 yaşında həyatı tərk edəcək.

Qartal tək zirvədə tutmuşdun qərar,
Nə tez bu zirvədən uçub getmisən.
Vətənindən əziz nə vardı sənə
İndi torpağını qucub getmisən.

Qapını kəsəndə o azğın düşmən,
Ordunu yaratmaq zərirət oldu.
Vətən kömək umdu hər hərbiçidən,
İşğala qəlbində bir hiddət oldu.

Layiqli varislər yetişib bu gün,
Hər kəsdə bir istək, bir amal oldu.
Misilsiz hünərlə qələbə üçün
Hər biri qəhrəman general oldu.

Qarabağ gülsə də, ağrısı durur,
Getmir ürəklərdən şəhidlik dağı.
Hər kəsin üzündə əzəmət, qürur,
Qalxıb Qarabağda Vətən Bayrağı.

Qarabağ uğrunda, Vətən uğrunda,
Xalq-ordu birləşdi bir vəhdət ilə.
Yad izi qalmadı doğma torpaqda,
Qəlbdə qisas hissi döndü məşələ.

Yollar ayrıcında sən çox qalmadın,
Seçmisən ədalət, qeyrət yolunu...
Qəlbində çağlayan Vətən sevgisi,
Düşmənə bəslənən nifrət yolunu.

Qələbə gününü görməsən də sən,
Zəfər sevincini xalqın yaşayır.
Pay düşür sənə də bu qələbədən
Müzəffər orduda haqqın yaşayır.

---

**Əlizadə ƏSƏDOV,**
**"Azad Azərbaycan"**
**qəzetinin əməkdaşı**



Azad Azərbaycan.- 2022- ci il.- 17 noyabr.- S. 8.